## *ARXEOLOGİYA VƏ ETNOQRAFİYA*

https://doi.org/10.59849/3006-1342.2026.1.107
UOT 94 (479.24)

*Aytən Mircəfər qızı Əliskəndərova*
*Kiçik elmi işçi*
*AMEA Gəncə bölməsi*
*E-mail: aytenceferova2021@gmail.com*
*Orcid ID: 0009-0002-8184-1671*
*Nüşabə Arzu qızı Abbasova*
*AMEA Gəncə Bölməsi*
*Böyük laborant*
*E-mail: nusabe.abbasova@internet.ru*
*Orcid ID: 0009-0009-4262-8238*

# QƏDİM SƏNƏTKARLIQ SAHƏSİ OLAN DULUSÇULUĞUN GƏNCƏ BÖLGƏSİNDƏ TƏDQİQİ

*Tarixi məlumatlar və arxeoloji tədqiqatlar göstərir ki, dulusçuluq sənəti Azərbaycan ərazisində, xüsusilə Gəncə bölgəsində qədim dövrlərdən etibarən formalaşaraq maddi-mədəniyyətin əsas sahələrindən birinə çevrilmişdir. Erkən Neolit dövründən başlayaraq Tunc dövrü və orta əsrlər boyunca Gəncədə istehsal olunan saxsı məmulatlar texnoloji səviyyəsi, forma və bəzək xüsusiyyətləri, eləcə də məişət, rituallıq və ideoloji məzmunu ilə seçilmişdir. Arxeoloji materiallar bu bölgədə dulusçuluğun yalnız gündəlik tələbatı ödəmədiyini, eyni zamanda sosial-iqtisadi münasibətləri və dünyagörüşünü əks etdirən mühüm ifadə vasitəsi olduğunu sübut edir. Müasir dövrdə elmi tədqiqatlar, fondlaşdırma və tədris təşəbbüsləri vasitəsilə Gəncə keramika ənənələrinin qorunması və gələcək nəsillərə ötürülməsi bu qədim sənətin davamlılığını təmin edir.*

*Açar sözlər:* Gəncə, dulusçuluq, sənətkarlıq, saxsı qab, ticarət həyatı

Dulusçuluq bəşər mədəniyyətinin ən qədim sənət sahələrindən biri olub, gil məmulatlarının hazırlanması və bişirilməsi ilə bağlıdır. Bu sənət Erkən Neolit dövründə formalaşmış və insanların məişət ehtiyaclarının ödənilməsində əsas vasitələrdən birinə çevrilmişdir. Morgan–Engels təsnifatına əsasən, dulusçuluğun meydana gəlməsi vəhşilikdən barbarlığa keçidi xarakterizə edən əsas texniki nailiyyətlərdən biri hesab olunur [3, s. 547].

Arxeoloji araşdırmalar göstərir ki, e.ə. VII–VI minilliklərdə Mezolit dövrü Neolit dövrü ilə əvəz olunmuş və bu tarixi mərhələdə istehsal təsərrüfatının formalaşması, əkinçilik və heyvandarlığın inkişafı, eləcə də oturaq həyat tərzinin möhkəmlənməsi maddi mədəniyyətin zənginləşməsinə səbəb olmuşdur. Əmək alətlərinin texniki baxımdan təkmilləşməsi və yeni istehsal vərdişlərinin yaranması insanların gündəlik məişət tələbatlarının ödənilməsində daha funksional vasitələrə ehtiyac yaratmışdır [4, s.30]. Belə bir şəraitdə keramika istehsalı artıq insanların məişət və təsərrüfat həyatının ayrılmaz sahələrindən biri kimi formalaşmağa başlamışdır.

Dulusçuluğun inkişafında dulus kürələri və dulus çarxının ixtirası həlledici əhəmiyyət daşımışdır. Gil məmulatlarının bişirilməsi üçün nəzərdə tutulan dulus kürələri e.ə. III–II minilliklərdə Qədim Şərqdə yaranmış, sonradan müxtəlif ərazilərə yayılmışdır [3, s. 547]. E.ə. IV minillikdə Yaxın Şərq ölkələri ilə mədəni əlaqələr nəticəsində bu növ gil məmulatlar Azərbaycana da keçmiş və yerli dulusçuluq ənənələrinin təşəkkülünə təkan vermişdir [4, s.4].

Bu ümumi tarixi proseslər fonunda Azərbaycan ərazisində dulusçuluğun inkişaf etdiyi bir sıra sənətkarlıq mərkəzləri meydana çıxmışdır. Həmin mərkəzlər arasında Gəncə bölgəsi öz əlverişli coğrafi mövqeyi, zəngin gil ehtiyatları və erkən oturaq həyat ənənələri ilə seçilir.

Gəncə ətrafı ərazilər qədim dövrlərdən etibarən dulusçuluğun inkişaf etdiyi mərkəzlərdən biri kimi xüsusi əhəmiyyət kəsb etmişdir. Arxeoloji materiallar göstərir ki, Tunc dövründə burada hazırlanmış saxsı qablar yüksək texnoloji səviyyəsi ilə seçilmiş, xüsusilə qaramtıl və qara çalarlı rəng üstünlük təşkil etmişdir [8, s. 61]. Bu rəng xüsusiyyəti, bir tərəfdən gil xammalının tərkibində dəmir birləşmələrinin mövcudluğu ilə, digər tərəfdən isə bişmə prosesində tətbiq edilən reduksiya şəraiti və tüstüləndirmə texnologiyası ilə əlaqələndirilə bilər. Beləliklə, Gəncə bölgəsində aşkar edilmiş qara rəngli saxsı məmulatlar yerli dulus ustalarının texnoloji biliklərinin qədim ənənələrə əsaslandığını və qara qabların əldə edilməsində məqsədyönlü istehsal üsullarından istifadə olunduğunu göstərir [9, s. 36].

Bununla belə, müxtəlif monoxrom və polixrom saxsı nümunələrinin digər qonşu bölgələrdə hazırlanmasını maddi tapıntılar sübuta yetirsə də, ilk dəmir dövründə ağ instruksiyalı keramikanın əsas ocağı Gəncə və ətraf ərazilər hesab olunur. Cızma naxışlar ağ boyaq maddəsi ilə doldurulmuş dulusçuluq nümunələri mənasını ifadə edən ağ instruksiyalı keramikanın ən yüksək inkişaf dövrü məhz bu tarixi mərhələdir. Ümumiyyətlə, antik dövrdə Gəncə dulusçuluğunun nümunələri özünün bədii tərtibatı, konstruktiv-plastik formalarının müxtəlifliyi, dekorativ-ornament xüsusiyyətlərinin çoxçeşidli və nəfisliyi ilə seçilən qablara təmsil olunmuşdur.

Gəncəçay vadisində e.ə. II minilliyin ikinci yarısına aid edilən dulusçuluq mədəniyyətinə aid erkən abidələr yerləşir. Bu abidələr arasında torpaq qəbirlər və kurqanlar diqqət çəkir. Üzəri daş piltə ilə örtülmüş torpaq qəbirlərdə əsasən qırmızı cilalı qablar üstünlük təşkil edir, örtüksüz torpaq qəbirlərdə isə qara cilalı keramika çoxluq təşkil edir. Kompleksdə çəhrayı rəngdə və ağ minkrustasiyalı qablar da aşkar edilmişdir. Xronoloji baxımdan, sal daşla örtülmüş torpaq qəbirlər daha əvvələ aiddir və əsasən çəhrayı keramika ilə fərqlənir. Həmin qəbirlər e.ə. XV əsrə, kurqanaltı örtüksüz torpaq qəbirlər isə e.ə. XIV əsrə aid edilir [4, s. 225].

Etnoqrafik araşdırmalara əsasən, dulusçuluq yalnız məişət tələbatının ödənilməsi ilə məhdudlaşmamış, eyni zamanda dövrün dünyagörüşünün, ideoloji və simvolik təsəvvürlərinin ifadə vasitəsi kimi çıxış etmişdir. Xüsusilə Gəncə bölgəsində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş saxsı qablar üzərindəki süjetli təsvirlər həmin dövr insanlarının təsərrüfat fəaliyyəti, inanc sistemi və ətraf mühitlə münasibətləri haqqında mühüm məlumatlar verir.

Gəncə ərazisində arxeoloji tədqiqatlar uzun illər ərzində tanınmış arxeoloq alim İshaq Cəfərzadə tərəfindən aparılmışdır. Onun rəhbərliyi ilə aparılan qazıntılar nəticəsində zəngin keramika materialları aşkar edilmişdir. Xüsusilə 84 nömrəli kurqandan aşkar edilən saxsı qab üzərindəki dəvə təsvirləri keramika məmulatlarının süjetli xarakter daşıdığını və bu təsvirlərin yalnız dekorativ məqsəd daşımadığını, eyni zamanda informativ və rəmzi məna kəsb etdiyini sübut edir. Dəvə obrazının keramika üzərində təsviri bölgədə ticarət yollarının mövcudluğunu, köç və təsərrüfat əlaqələrini, eləcə də sosial-iqtisadi münasibətləri əks etdirən mühüm göstərici kimi qiymətləndirilə bilər [7, s. 133].

Son Tunc dövründə keramika istehsalı əvvəlki mərhələlərdən fərqli inkişaf yolu keçmişdir. Bu dövrə aid gil qabların bir hissəsi üzərində həndəsi və xətti naxışlar işlənmiş, həmin naxışlar ağ maddə, gipslə doldurularaq inkrustasiya üsulu ilə bəzədilmişdir. İ. Nərmanovanın fikrinə görə, gil qablar üzərində cızma naxışların ağ maddə ilə doldurulması Xocalı–Gədəbəy mədəniyyəti dövrü üçün xarakterik xüsusiyyət hesab olunur. Bu mədəniyyət Xocalı şəhəri və Gədəbəy ərazisində aşkar edilmiş arxeoloji materiallar əsasında Xocalı–Gədəbəy mədəniyyəti adlandırılmışdır. Bununla yanaşı, bəzi tədqiqatçılar, o cümlədən

Q.M.Əhmədov, sözügedən mədəniyyəti "Gəncə–Qarabağ mədəniyyəti" kimi səciyyələndirmişlər [8, s. 54].

Gəncə ərazisində aparılan qazıntılar nəticəsində məlum olur ki, orta əsr dövründə dulusçuluğa aid istehsal ocaqları şəhərin müxtəlif yerlərində yerləşmişdir. Bu ocaqlarda saxsı qablar bişirilmiş, gil məmulatları hazırlanmışdır. İstehsal məkanları əsasən şəhərin qala divarları və divarların ətrafındakı sahələrdə mövcud olmuşdur. Belə bir təşkilatlanma həm təhlükəsizlik, həm də istehsalın nəzarət altında saxlanılması üçün əlverişli hesab edilmişdir. Digər orta əsr şəhərlərində də dulusçuluq sahələri oxşar prinsip üzrə yerləşmişdir. İstehsal ocaqları şəhərin mərkəzi və ya müdafiə divarlarına yaxın ərazilərdə yerləşdirilərək həm məişət ehtiyaclarını təmin etmiş, həm də ticarət və ixrac üçün gil məmulatlarının istehsalını mümkün etmişdir. Gəncədəki istehsal sahələri bu baxımdan ərazinin maddi-mədəniyyət tarixində rol oynamış və şəhərin sənətkarlıq ənənələrinin inkişafını əks etdirmişdir [5, s. 17].

Orta əsrlər dövründə Gəncədə hazırlanmış dulusçuluq məmulatları texnoloji xüsusiyyətlərinə görə şirli və şirsiz saxsı qablar olmaqla iki qrupa ayrılır. Şirli saxsı məmulatları, əsasən məişət və süfrə qabları kimi istifadə edilmiş, onların istehsalında anqob və qurğuşun oksidi əsasında hazırlanmış şir qatından istifadə olunmuşdur. Bu qabların səthləri yaşıl, firuzəyi, marqans və göy çalarlı şirlərlə örtülmüş, üzərləri həndəsi və nəbati ornamentlərlə bəzədilmişdir.

Şirsiz saxsı məmulatları isə daha çox təsərrüfat və gündəlik məişət ehtiyacları üçün hazırlanmışdır. Bu qrupa qazanlar, küplər, kuzələr, çıraqlar və digər iri həcmli qablar daxildir. Şirsiz qablar qalın divarlı olması, möhkəmliyi və cızma, deşmə üsulları ilə işlənmiş naxışları ilə səciyyələnir. Gəncədə aşkar edilmiş bu tip keramika nümunələri şəhərin orta əsrlər dövründə inkişaf etmiş istehsal ənənələrinə malik olduğunu sübut edir [10, s. 124-125].

Xanlıq dövründə sənətkarlara yaradılmış şərait haqqında 1809-cu ilə aid digər bir mənbədə maraqlı məlumat verilir. Həmin mənbədə qeyd olunur ki, xanlıq dövründə saxsı qab istehsalı ilə məşğul olan ustalar öz məhsullarını satmaq məqsədilə şəhərə gətirir, xan isə onlardan yalnız çox cüzi gəlir alırdı [11, s. 126]. Lakin sonradan şəhərdə istehsal olunan saxsı qablara görə keçmiş komendant Koçnev tərəfindən iltizam sistemi tətbiq edilmişdir. Bu sistemə əsasən iltizamçı hər bir səhəngi 10 qəpikdən alaraq 25 qəpiyə satmış, bununla yoxsul ustaların məhsullarını sərbəst şəkildə bazara çıxarmasına qadağa qoyulmuşdur [1].

Gəncəbasarda dulusçuluğun mühüm istehsal sahələrindən birini təndirlərin hazırlanması təşkil etmişdir. Arxeoloji materiallar göstərir ki, bu ərazidə hazırlanan təndirlər ölçü, möhkəmlik və konstruktiv quruluşuna görə digər bölgələrin təndirlərindən fərqlənmişdir. Gəncə təndirləri adətən yerə basdırılan, dairəvi formada hörülən və dərinliyi təxminən 85-90 sm olan qurğular kimi xarakterizə olunur. Onların istehsalında keyfiyyətli gil materialından istifadə edilmiş, bişirmə prosesi isə xüsusi kürələrdə həyata keçirilmişdir. Bu təndir əsasən məişət ehtiyaclarına xidmət etmiş və şəhər əhalisinin gündəlik həyatında vacib rol oynamışdır [2, s. 113].

Qeyd etmək lazımıdır ki, Azərbaycanda ikiüzlü oyma üsulu ilə hazırlanmış saxsı məmulatlarına çox geniş yayılmış şəkildə rast gəlinmir. Lakin bu texnika Gəncə dulusçuluğunda daha qabarıq şəkildə özünü göstərir. Gəncə ustalarının hazırladığı saxsı məmulatlarında oyma naxışlar həm daxili, həm də xarici səthdə işlənir. Bu xüsusiyyət şəhərin saxsı məmulatlarını fərqləndirir və onların yerli dulusçuluq ənənəsində yer tutduğunu göstərir.

Müasir dövrdə Gəncə bölgəsində dulusçuluq sənətinin maddi-mədəni irs nümunələrinin qorunması istiqamətində elmi müəssisələr tərəfindən sistemli fəaliyyət həyata keçirilir. Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsində aparılan elmi tədqiqatlar nəticəsində qədim dövrə aid saxsı qab nümunələri mühafizə olunaraq qorunub saxlanılır.Bu nümunələr Gəncə bölgəsində dulusçuluğun tarixi inkişaf mərhələlərinin

öyrənilməsi, regionun maddi-mədəniyyət tarixinin elmi baxımdan araşdırılması və milli tarixi irsin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.



*Şəkil 1. AMEA Gəncə Bölməsində qədim saxsı qab nümunələri*

Aparılan müşahidə və təhlillər göstərir ki, hazırkı mərhələdə Gəncə şəhərində dulusçuluq sənətinin davamlılığının təmin edilməsi və inkişaf etdirilməsi istiqamətində konkret addımlar atılmaqdadır. Bu baxımdan şəhərdə dulusçuluq sahəsi üzrə ixtisaslaşmış tədris kursunun fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Sözügedən kursda iştirakçılara dulusçuluğun tarixi inkişaf yolu, istehsalda istifadə edilən gil növləri, saxsı məmulatların hazırlanma ardıcıllığı və ənənəvi texnoloji üsullar barədə nəzəri biliklər aşılanır, paralel olaraq praktik məşğələlər həyata keçirilir. Tədris prosesində kurs iştirakçıları gil materialının hazırlanması, dulus çarxı ilə işləmə, formalaşdırma və bişirmə mərhələlərini bilavasitə tətbiq edərək öyrənirlər.

Eyni zamanda kurs çərçivəsində peşəkar ustaların iştirakı ilə ustad dərslərinin təşkili dulusçuluq ənənələrinin ötürülməsində mühüm rol oynayır. Bu məşğələlər gənclərin və müxtəlif yaş qruplarına aid olan sənət həvəskarlarının qədim sənət nümunələri ilə yaxından tanış olmasına şərait yaradır. Qeyd olunan fəaliyyətlər dulusçuluğun yalnız tarixi-mədəni irs elementi kimi deyil, həm də müasir dövrdə yaradıcı və tətbiqi sənət sahəsi kimi formalaşmasına imkan verir. Beləliklə, Gəncə şəhərində həyata keçirilən bu cür tədris və maarifləndirici təşəbbüslər dulusçuluq sənətinin qorunması, yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyətə malikdir.

## *Nəticə*

Aparılan tədqiqatlar göstərir ki, Gəncə bölgəsində dulusçuluq sənəti Neolit dövründən başlayaraq ardıcıl inkişaf etmiş, Tunc dövrü və orta əsrlərdə həm texnoloji, həm də vizual-dekorativ keyfiyyətlərinə görə yüksək səviyyəyə çatmışdır. Arxeoloji materiallar Gəncədə istehsal olunan saxsı məmulatların yalnız məişət tələbatını ödəmədiyini, eyni zamanda sosial-iqtisadi münasibətləri, ideoloji baxışları və dünyagörüşünü əks etdirən mühüm maddi-mədəniyyət nümunələri olduğunu göstərir. İkiüzlü oyma, inkrustasiya, süjetli təsvirlər və şirli-

şirsiz keramika ənənələri Gəncə dulusçuluğunu digər bölgələrdən fərqləndirir. Müasir dövrdə bu sənətin elmi əsaslarla qorunması, fondlaşdırılması və tədris yolu ilə yaşadılması Gəncə dulusçuluğunun Azərbaycan mədəni irsində tutduğu mühüm yerin davamlılığını təmin edir.

ƏDƏBİYYAT


1. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.), Тифлис, том IV , 1870, 1019 с.
2. Allahverdiyev N. Gəncə məhəlləri, Bakı, 2020, 531 s.
3. Azərbaycan Sovet Ensiklopediyası. Ш cild, Bakı 1979, 599 s.
4. Baxşəliyev V.  Azərbaycan arxeologiyası. Bakı  2007, 237 s.
5. Əhmədov Q. Azərbaycanın şirsiz saxsı məmulatı.  Bakı 1959, 142 s.
6. Əliyev V.  Azerbaycan tunc dövrü boyalı qablar mədəniyyəti "Elm" Bakı 1977, 164 s.
7. İmanov E. Azərbaycanın Tunc dövrü petroqliflərində zoomorf təsvirləri. Bakı: "Elm və təhsil" Bakı 2021, 246 s.
8. Məmmədov A. Arxeologiya və Etnoqrafiya. Gəncə: "Elm" 2008, 237 s.
9. Orucov A. "İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq (IV-VIII əsrlərdə)" Bakı: "Elm" 1989, 60 s.
10. Quliyeva N. Gəncədə sənətkarlıq // Elm və həyat jurnalı №3, Nizami Gəncəvi-870 Bakı 20121
11. Talıbova G, Abbasova N. Gəncə qədim dulusçuluq mərkəzlərindən biri kimi// AMEA Gəncə Bölməsi. "Gəncə incəsənəti" mövzusunda Respublika Elmi Konfransının materialları "Elm" Gəncə 2025, 335 s.


УДК 94 (479.24)

*Айтан Мирджафар кызы Алискандарова,*
*Нушаба Арзу кызы Аббасова*
*Гянджинское Отделение НАНА*

## ДРЕВНЕЕ ИСКУССТВО АЗЕРБАЙДЖАНА: РАЗВИТИЕ ГОНЧАРНОГО ДЕЛА В ГЯНДЖЕ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, керамика, ремесло, гончарное производство, торгово-экономическая жизнь

Исследование показывает, что искусство гончарного дела в Азербайджане, особенно в Гянджинском регионе, формировалось с древнейших времён и стало одной из важнейших сфер материальной культуры. Начиная с эпохи раннего неолита, через бронзовый век и вплоть до Средневековья, керамические изделия, производимые в Гяндже, отличались высоким технологическим уровнем, разнообразием форм и декоративных элементов, а также выполняли повседневные, ритуальные и символические функции. Археологические материалы свидетельствуют о том, что керамика в данном регионе не только удовлетворяла бытовые потребности населения, но и служила важным средством художественного выражения, отражая социально-экономические отношения и мировоззренческие представления общества. В современный период сохранение гянджинских керамических традиций и их передача будущим поколениям посредством научных исследований, институциональной

поддержки и образовательных инициатив способствует устойчивому развитию этого древнего вида искусства.

UDC 94 (479.24)

*Aytan Mirjafar Aliskandarova,*
*Nushaba Arzu Abbasova*
*Ganja Branch of ANAS*

ANCIENT ART OF AZERBAIJAN: THE DEVELOPMENT OF POTTERY IN GANJA

*SUMMARY*

*Keywords:* Ganja, pottery, craftsmanship, ceramics, commercial life

Research indicates that the art of pottery in Azerbaijan, particularly in the Ganja region, has developed since ancient times and became one of the principal components of material culture. From the Early Neolithic period through the Bronze Age and into the Middle Ages, pottery produced in Ganja was distinguished by its technological advancement, diverse forms, decorative features, and its everyday, ritual, and symbolic functions. Archaeological evidence demonstrates that pottery in this region not only fulfilled daily domestic needs but also functioned as an important medium of expression reflecting socio-economic relations and the prevailing worldview. In the modern period, the preservation of Ganja's ceramic traditions and their transmission to future generations-through scientific research, institutional support, and educational initiatives-ensure the sustainability of this ancient art form.

***Daxil oldu: 21.02.2026-cı il***